# Xalqın inamına arxalanan uğurlu siyasət

## *Bu siyasət inkişafı, sabitliyi, rifahı təmin edir*



**Prezident İlham Əliyev 2003-cü ildən Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmiz dinamik inkişaf yolu keçib, iqtisadiyyatımız sürətlə inkişaf edib, bu illər ərzində beynəlxalq səviyyədə dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən dövləti imicini qazanıb. Ölkəmizinin beynəlxalq aləmdə nüfuzunun artması, mövqelərinin güclənməsi, qlobal beynəlxalq layihələrdə Azərbaycanın həlledici iştirakçı kimi çıxış etməsi, xalqın maraqlarını təmin edən siyasi fəaliyyətində göstərdiyi iradə və qətiyyət vətəndaşların Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə münasibətini formalaşdırıb. Bu münasibət xalqın sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə inamını ifadə edir. Xalq-iqtidar birliyi, məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Ölkəmizin beynəlxalq nüfuzu artır, dünya miqyasında layiqli yer tutur, Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Etibarlı tərəfdaş imici qazanmışıq, beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.**

Həyata keçirilən bu uğurlu siyasət bizim qarşımızda da xalq olaraq, həqiqətən də, çox böyük vəzifələr qoyur. Bu vəzifələri həyata keçirmək üçün ölkəmizdə dünya siyasətini daha dolğun, daha praqmatik qəbul edərək onu Azərbaycanın maraqlarına uyğunlaşdırmağa layiq liderin olması vacibdir. Belə bir lider cənab İlham Əliyevdir və xalq da bunu daha aydın şəkildə görür və ona böyük dəstək verir. Digər bir keyfiyyət isə dövlət başçısının qətiyyətli olmasıdır. Prezident İlham Əliyev rəhbərliyi dövründə çox ciddi addımlar atıb və atdığı bu addımlarda həmişə milli maraqlarımızı öndə tutub. Prezident İlham Əliyev hansısa böyük dövlətin, beynəlxalq təşkilatın təsiri və təzyiqi ilə heç zaman qərar qəbul etməyib. Prezidentimiz qərar qəbul edərkən onun üçün bir prinsip önəmli olub, bu da Azərbaycanın milli və dövlət maraqlarıdır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyası əsasında yeni dövrdə yeni keyfiyyətlə daha da təkmilləşdirilərək tətbiq olunmaqdadır. Prezident İlham Əliyev beynəlxalq miqyasda dünya liderləri içərisində böyük nüfuza sahib olan şəxsdir. Azərbaycan ərazisinin və əhalisinin sayı baxımından kiçik dövlətdir. Amma bu dövlətin başçısı siyasi çəkisinə və nüfuzuna görə beynəlxalq miqyasda kifayət qədər güclü liderlər sırasındadır. Azərbaycan Cənubi Qafqazda lider dövlətdir və regionla bağlı baş verən hadisələrdə, qlobal layihələrlə bağlı məsələlərdə əsas söz sahibi Prezidentimiz İlham Əliyevdir. Bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycanın iqtisadi cəhətdən inkişaf etmiş, hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında, onun möhkəm təməllərinin qoyulmasında görkəmli dövlət xadimi Prezident İlham Əliyevin xidmətləri əvəzsizdir və daim tariximizə qızıl hərflərlə yazılacaqdır.

Xarici siyasətin prioritet istiqamətlərinin təhlili belə deməyə əsas verir ki, İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Rusiya, İran, Türkiyə, Çin kimi böyük dövlətlərlə səmərəli qarşılıqlı əlaqələr qurulub. Xüsusən, Rusiya faktoru Cənubi Qafqaz üçün həmişə aktual olub. İlham Əliyev Moskva ilə münasibətləri rasional, çevik və uzaqgörən addımlarla yeni səviyyəyə yüksəldə bilib. Bütün sahələr üzrə əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Prezident İlham Əliyevin Azərbaycanda müstəqil dövlət quruculuğunu 2003-cü ildən başlayaraq faktiki olaraq yeni müasir çağırışlara cavab verən səviyyəyə yüksəltdiyini xüsusi vurğulamaq lazımdır. İndi Azərbaycan Qərbdən tutmuş Şərqə qədər bütün dövlətlərlə əməkdaşlıq edir. Avropa İttifaqının proqramlarında fəal iştirakçı olduğu kimi, Çinin "Yeni İpək Yolu" layihəsində aktiv fəaliyyətdədir, Azərbaycanla əməkdaşlığa xüsusi önəm verən, möhtərəm Prezidentimizin siyasi xadim kimi fəaliyyətini yüksək qiymətləndirən Çin Xalq Respublikasının sədri Si Tszinpin bildirir ki, qədim İpək Yolu üzərində yerləşən Azərbaycanla tarix boyu dostluq münasibətləri mövcud olub. Dövlətlərimiz arasında diplomatik münasibətlər yaradılmasından keçən illər ərzində bu dostluq münasibətlərində qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı fayda prinsiplərinə əsaslanan sürətli tərəqqi əldə edilib. "Bu hədəfə nail olmaq işinə şəxsən Sizin mühüm töhfənizi yüksək qiymətləndirirəm".

Rusiya ilə strateji tərəfdaşlıq davam etdirilir. Müstəqil respublikamızın sosial-iqtisadi inkişaf yolunda inamla irəlilədiyini, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynadığını bildirən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlıq münasibətlərinin yüksək qiymətləndirildiyini vurğulayır. "Əminəm ki, biz bütün sahələrdə səmərəli ikitərəfli əlaqələri, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyəti birgə səylərimizlə bundan sonra da uğurla inkişaf etdirəcəyik. Heç şübhəsiz ki, bu, dost xalqlarımızın əsas mənafelərinə uyğundur. Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız. Dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfəniz əvəzsizdir. Bizim aramızda yaranmış münasibətləri yüksək qiymətləndirirəm. Sizinlə konstruktiv dialoqun və sıx birgə işin davam edəcəyinə ümid bəsləyirəm".

Türkiyə ilə birlikdə çox ciddi beynəlxalq layihələr həyata keçirilir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan deyir "öz gücünü ortaq dil, din, tarix, mədəniyyət və dəyərlərimizdən alan dostluq və qardaşlıq münasibətlərimizin müdrik rəhbərliyiniz ilə gündən-günə inkişaf edib güclənməsini məmnuniyyətlə müşahidə edirəm".

İranla mehriban qonşuluq və dostluq şəraitində əlaqələri inkişaf etdirilir. İran İslam Respublikasının Prezidenti Həsən Ruhani iki ölkə xalqlarının oxşar mədəni, dini və tarixi köklərinə əsaslanan İran-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdiriləcəyinə əminliyini bildirir. Bir sözlə, harada Azərbaycan varsa, orada da əməkdaşlıq və sülh var.

Bu nailiyyətin 2003-cü ildən sonrakı memarı isə Prezident İlham Əliyevdir! Heydər Əliyevin yetişdirdiyi ən müasir təfəkkürə malik Azərbaycan Prezidenti! Bunun doğruluğunu əlamətdar günlərdə möhtərəm Prezidentimiz İlham Əliyevə ünvanlanan çoxsaylı məktublar da bir daha təsdiq edir. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko "Sizin uzaqgörən, dəqiq strateji siyasətiniz, təşkilatçılıq istedadınız, ən mürəkkəb məsələlərin həllinə əsl dövləti mövqedən yanaşmağınız Sizə xalqın sevgisini, həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda dərin hörmət və böyük nüfuz qazandırıb. Belarus ölkələrimiz arasında bütün istiqamətlər üzrə inkişaf edən, açıq dialoqa və tam qarşılıqlı anlaşmaya əsaslanan əməkdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirir. Əminəm ki, Belarus ilə Azərbaycan arasında möhkəm dostluq, qarşılıqlı dəstək və etimad ənənələri bundan sonra da xalqlarımızın rifahı naminə hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin etibarlı təməli olacaq". Nursultan Nazarbayev "Əminəm ki, Sizin ali dövləti fəaliyyət sahəsində çoxillik təcrübəniz, xalqınızın rifahının yaxşılaşdırılmasına yönəlmiş gərgin səyləriniz bundan sonra da Azərbaycanın firavanlaşmasına və davamlı inkişafına sanballı töhfə verməkdə davam edəcək". Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Mən Amerika və Azərbaycan xalqları üçün qarşılıqlı maraq doğuran bir çox sahələrdə Sizinlə birgə işləmək əzmindəyəm. Biz Sizinlə birlikdə terrorçuluğun məğlub edilməsində, yeni iş yerlərinin yaradılmasında və Avropanın enerji təhlükəsizliyinin yaxşılaşdırılmasında tərəqqi əldə edə bilərik. Korrupsiyaya qarşı mübarizədə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində irəliləyiş bu səylərə töhfə verəcəkdir".

Ümummilli liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Vətəndaş cəmiyyəti quruculuğu İlham Əliyevin hər bir insanın rifah halını yaxşılaşdıran layihələr həyata keçirməsi, hüququn aliliyinin təmin edilməsi, qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyətinin təmini, demokratik qaydaların cəmiyyətin həyatına sıx daxil olması, idarəetmədə şəffaflığın daim inkişaf etdirilməsi, insan haqlarının təmini, cəmiyyətdə tolerantlığın, multikulturalizmin bərqərar olması və digər yeniliklərdə özünü əyani surətdə təsdiqləməkdədir. Bu proses getdikcə daha geniş vüsət alır və sosial-mədəni transformasiyalar dövlətçiliyin güclənməsinə geniş imkanlar açır. Azərbaycan xalqının Prezident İlham Əliyevə məhəbbətinin, inamının əsasında dövlətimizin başçısının liderlik keyfiyyətləri dayanır. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin" deyən möhtərəm Prezidentimizi xalqa sevdirən ən mühüm xüsusiyyəti əsl dövlət başçısına xas qətiyyət, atdığı hər bir addımda milli maraqları öndə tutmasıdır.

Prezident İlham Əliyevin verdiyi hər bir qərar Azərbaycan dövlətinin milli maraqlarına hesablanır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir. Bu gün ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində qeyri-neft sektorunun yüksəlişi daha çox diqqəti cəlb edir, çoxşaxəli iqtisadiyyatın inkişafı təmin olunur.

Bu sahədə turizm sektorunun güclənməsini prioritet elan edən Prezident İlham Əliyev Azərbaycanda bu sektorun kompleks inkişafını diqqət mərkəzində saxlayır. Son illərdə Azərbaycana gələn turistlərin sayı sürətlə artır. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə minlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, ümumiyyətlə, nəhəng infrastruktur layihələrinin icrası Azərbaycanı regionun nəqliyyat-tranzit, eləcə də logistik mərkəzinə çevirdi. Əgər 1994-cü ildə ulu öndər Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafının təməl daşı hesab olunan "Əsrin müqaviləsi"ni reallaşdırdısa, 23 il sonra, 2017-ci ilin sentyabrın 14-də cənab İlham Əliyev bu müqavilənin 2049-cu ilə kimi uzadılması ilə bağlı yeni "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu.

Ölkəmizdə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi daha sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin məqsədyönlü fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib.

Azərbaycan dövləti və xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, inkişafa doğru məhz Heydər Əliyevin təməlini qoyduğu yol ilə inamla irəliləməkdədir. Ötən illərin siyasi-iqtisadi-sosial mənzərəsi göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimizin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi liderdir. Prezident İlham Əliyev ulu öndərin siyasi-ideoloji kursunu layiqincə davam etdirməklə, Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirməklə, müstəqilliyimizi möhkəmləndirməklə, dövlətçiliyimizi qüdrətləndirməklə Heydər Əliyevin ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi əzm və inamla aydın sabahlara aparır. İlham Əliyev gərgin iş qrafikinə baxmayaraq, daim xalqının yanındadır, regionlarda çoxsaylı görüşlər keçirir, ona pənah gətirən vətəndaşların problemlərini şəxsən dinləyərək, həllinə dair tapşırıqlar verir. Təvazökarlığı həyat tərzinə çevirən Prezident İlham Əliyev hər bir azərbaycanlının prezidenti olmağını əməli işi ilə sübut edir. Prezident İlham Əliyevin keçdiyi həyat yolu, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi Azərbaycanın firavan gələcəyi naminə uğurlu fəaliyyətini təmin edir.

**Yusif ƏLƏKBƏROV,**
**"Prant" şirkətinin prezidenti,**
**beynəlxalq mükafatlar laureatı,**
**Beynəlxalq Elmlər Akademiyasının fəxri üzvü.**